***Kənan Ədilxanov.*** İqlim dəyişmələrinin silahlı münaqişələrlə və siyasi böhranlarla əlaqəsi: beynəlxalq hüquqi aspektlər // Azərbaycan Hüquq Jurnalı. 2024 (№3), s. 97-105.
DOI: 10.61638/SHWS6887

# BEYNƏLXALQ EKOLOGİYA HÜQUQU

## İQLİM DƏYİŞMƏLƏRİNİN SİLAHLI MÜNAQİŞƏLƏRLƏ VƏ SİYASİ BÖHRANLARLA ƏLAQƏSİ: BEYNƏLXALQ HÜQUQİ ASPEKTLƏR

KƏNAN ƏDİLXANOV*

**Annotasiya**

*Bu məqalə iqlim dəyişmələrinin silahlı münaqişələr və siyasi böhranlarla əlaqəsini beynəlxalq hüquqi çərçivədə araşdırır. İlk olaraq, müharibələrin iqlim dəyişmələrinə təsirləri və iqlim dəyişmələrinin silahlı münaqişələrə səbəb olması təhlil edilir. Xüsusilə Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişmələrinin konfliktlərə dolayı təsirini qəbul etməsi məsələsinə diqqət yetirilir və bu istiqamətdə A/64/350 saylı Hesabat və 6587 saylı Bəyanat nümunə kimi araşdırılır. Məqalədə həmçinin bəzi regional və beynəlxalq gərginliklər fonunda iqlim dəyişmələrinin siyasi böhranlara və resurs münaqişələrinə təsiri təhlil olunur. Bundan əlavə, iqlim maliyyəsi ilə bağlı yaranan siyasi mübahisələr də diqqət mərkəzindədir. Nəticə olaraq, iqlim dəyişmələrinin konfliktlərə dolayı təsir göstərdiyi və bunun beynəlxalq əməkdaşlıq və mövcud hüquqi rejimlərin səmərəli tətbiqi ilə aradan qaldırıla biləcəyi vurğulanır. Bu çərçivədə iqlim dəyişikliyi və münaqişələrin qarşılıqlı əlaqəsinin daha dərindən araşdırılmasının vacibliyi qeyd olunur.*

**Açar sözlər:** *iqlim dəyişmələri, silahlı münaqişələr, beynəlxalq humanitar hüquq, Paris Sazişi (2015), qlobal istiləşmə və siyasi böhranlar, BMT Təhlükəsizlik Şurası.*

### *I. Giriş*

Son onilliklər ərzində bəşəriyyətin üzləşdiyi ən böyük problemlərdən biri günü-gündən təsiri biraz daha artan iqlim dəyişmələridir. İqlim dəyişmələri artıq yalnız ekoloji böhran kimi deyil, həm də sosial, iqtisadi və siyasi sabitlik üçün ciddi təhdid kimi qəbul edilir.İqlim dəyişmələrinin səbəbi məlumdur- istixana qazlarının atmosferə emissiyası, ozon qatının zədələnməsi və buna bağlı olaraq qlobal istiləşmənin baş verməsi. Nəticədə təbii fəlakətlərin artması, quraqlıqlar, daşqınlar və ekstremal hava şəraiti insan həyatına, ekosistemlərə və cəmiyyətlərin mövcudluğuna birbaşa təsir göstərir. İqlim dəyişmələrinin təsirləri yalnız ekoloji fəlakətlərlə məhdudlaşmır. Məhz buna görə də iqlim dəyişimələrinin təsirini araşdırarkən məsələyə daha geniş prizmadan yanaşmaq zəruridir. Hal-hazırda dünya üzərində iqlim dəyişmələrinin səbəbiyyət verdiyi və yaxud da şiddətləndirdiyi silahlı münaqişələr və siyasi böhranlar vardır. Bu elmi məqalədə ilk olaraq iqlim dəyişmələri və silahlı münaqişələr arasında olan əlaqəyə, daha sonra isə iqlim dəyişmələrinin siyasi böhranlara olan təsirinə toxunulacaqdır.

Beynəlxalq səviyyədə bu məsələ mübahisə mövzusu olsa da, insan həyatını təhdid edən iki problem - iqlim dəyişmələri və silahlı konfliktlər qarşılıqlı əlaqədədir və bu əlaqə iki tərəfli şəkildə təhlil olunmalıdır:

1. Müharibələrin iqlim dəyişmələrinə verdiyi "töhfə";

* Doktorant / Azərbaycan Turizm və Menecment Universiteti / email: kadilxanov@yahoo.com

2. İqlim dəyişmələrinin səbəb olduğu silahlı münaqişələr.

Müharibələr yalnız dağınıtılar, itkilər və siyasi böhranlarla deyil, həmçinin ətraf mühitə vurulan ciddi ziyanla yadda qalır. 1977-ci il tarixində qəbul edilmiş Cenevrə Konvensiyalarına I Əlavə Protokolun 35.3-cü maddəsinə əsasən silahlı münaqişələr zamanı ətraf mühitə ciddi və uzunmüddətli zərər vurulması qadağandır [1]. Ətraf mühitin mühafizəsinə yönəlmiş bu beynəlxalq humanitar hüquq norması dəfələrlə silahlı münaqişələr zamanı açıq şəkildə pozulmuşdur. Körfəz müharibəsi zamanı Küveytdə 700 neft quyusunun yandırılması nəticəsində atmosferə atılan karbon qazının emissiyası artmış və Fars körfəzinə 11 milyon ton neft dağıdılmışdır [17]. Həmin müharibə vaxtı Küveyt ərazisində yerləşən Əd-Dəxna səhrasında 300-dən artıq neft gölməçələri yaranmışdır [17]. Həmçinin 2020-ci ildə baş vermis İkinci Qarabağ müharibəsi zamanı Ermənistan Silahlı Qüvvələri və Azərbaycan Respublikası ərazisində qeyri-qanuni yerləşən erməni silahlı qrupları ağ fosfor mərmilərindən genişmiqyaslı istifadə etmiş və bunun nəticəsində ətraf mühit infrastrukturu ciddi zərər görmüşdür. Bununla da təcavüzkar dövlət 1980-ci il tarixli Adi Silahların Konkret Növlərinə dair Konvensiyanın III Protokolunun 2-ci maddəsinin tələbini pozmuşdur [8]. Həmçinin Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq İdarəsi tərəfindən AR CM-in 100.1(təcavüzkar müharibə aparma) və 214.2 (terrorçuluq) maddələri üzrə cinayət işi açılmışdır [13]. Yuxarıda göstərilən silahlı münaqişələrdə ətraf mühitə vurulan ziyandan danışmaq mümkündür. Lakin bu silahlı münaqişələrin iqlim dəyişmələrinə olan təsiri ilə bağlı konkret bir şey demək mümkün deyil. Hal-hazırda davam etməkdə olan Rusiya-Ukrayna müharibəsi ilə bağlı mövcud olan statistikalar isə müəyyən qədər ziddiyyətlidir. Belə ki, bu müharibənin ilk bir həftəsində atmosferə 100 milyon ton karbon dioksid (CO2) qazı emissiya olunmuşdur [12]. 7 gün kimi qısa bir müddət ərzində bu qədər istixana qazının atmosferə buraxılması, 2015-ci il tarixli Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası altında Paris Sazişinin məqsədlərinə ziddir. Belə ki, həmin Sazişin 2.1-ci maddəsinə əsasən, hal-hazırda 2°C olan qlobal istiləşmə səviyyəsini 1.5°C-ə çatdırmaq Sazişin məqsədlərindəndir [7]. Eyni Sazişin 4.2-ci maddəsi dövlətlərdən istixana qazlarının emissiyasını mümkün qədər azaltmağı tələb edir [7]. Həmçinin Paris Sazişinin 3-cü maddəsində göstərilir ki, bu Sazişin məqsədlərinə çatmaq üçün nəzərdə tutulan əsas mexanizm "milli səviyyədə müəyyən olunmuş töhfələr"dir. Bu hər bir üzv dövlətin milli iqlim strategiyalarıdır və bu Sazişin 4.2-ci maddəsinə əsasən hər bir üzv dövlət öz milli iqlim planını hazırlamalıdır [7]. Bundan əlavə eyni maddənin müvafiq olaraq 9 və 19-cu bəndləri dövlətlərdən öz milli iqlim strategiyalarını hər 5 ildən bir yeniləməyi və uzunmüddətli emissiya azaldılması planlarının hazırlanmasını tələb edir [7]. Daha əvvəl də verilən statistikalardan aydın olur ki, başlatdığı müharibə səbəbindən Rusiya Paris Sazişinin öhdəliklərini yerinə yetirə bilmir və və emissiyaları azaltmaq əvəzinə, onların artımına səbəb olur. Həmçinin onu da

qeyd etmək mütləqdir ki, bu müharibə Ukraynanın beynəlxalq səviyyədə tanınmış ərazilərində aparılır və Rusiyaya adekvat cavab verməyə vadar olan Ukrayana da iqlim dəyişmələri ilə mübarizə ilə bağlı öhdəliklərini yerinə yetirməkdə çətinliklərlə üzləşir. Yuxarıda olan fikirlər nəticəsində silahlı münaqişələrin iqlim dəyişmələrinə təsirini görə bilərik. Lakin konfliktin başlaması ilə beynəlxalq aləmin aqressor dövlətə vediyi reaksiyalar tamamilə fərqli və təzadlı mənzərə ortaya çıxarmışdır. Belə ki, Rusiya və Ukrayna arasında bu silahlı münaqişənin başlaması ilə Avropa İttifaqı dövlətləri Rusiyaya sanksiyalar tətbiq etmiş və həmin ölkədən qaz idxalını dayandırmışdır. Qitənin qaz ehtiyacının 40%-i məhz Rusiyadan alınan qaz hesabına ödənilirdi və bu addım Aİ ölkələrini alternativ enerji mənbələrindən istifadə etməyə vadar etmişdir. Nəticə olaraq Avropa ölkələri alternativ enerji mənbələrindən istifadəni 2,5 dəfə artırmışdır [14]. Məhz buna görə də davam etməkdə olan bu müharibənin iqlim dəyişikliyinə səbəb olmasını demək çox çətindir.

Birləşmiş Millətlər Təşkilatı səviyyəsində iqlim dəyişmələrinin silahlı münaqişələrə dolayı yolla səbəb olması faktı artıq reallıq kimi qəbul edilmişdir. İlk dəfə bu barədə təşəbbüslə çıxış edən BMT Baş Katibi olmuşdur. Belə ki, 2009-cu ildə A/64/350 saylı Hesabatla çıxış edən Baş Katib dünya ictimaiyyətinin diqqətini iqlim dəyişmələrinin insan sağlamlığına, qida təhlükəsizliyinə və ölkələrin daxili stabilliyinə vurduğu zərərə yönləndirmişdir [2]. Həmçinin Hesabatda qeyd olunur ki, iqlim dəyişmələrinə bağlı başverən təbii fəlakətlər zamanı əhalinin öz yaşayış yerini itirməsi, su və qida resurslarının azalması cəmiyyətdə sosial gərginliyi artıra və dolayı yolla münaqişələrə səbəb ola bilər [2]. Bundan əlavə iqlim dəyişmələrinə bağlı olaraq baş verən təbii fəlakətlər əhalinin köç etməsinə, yaşayış yerini daimi itirməsinə, hətta kiçik ada dövlətlərinin ərazisinin yoxa çıxması hallarında əhalinin "vətəndaşsızlıq" vəziyyətinə gətirib çıxara bilər [2]. Hesabat tam olaraq reallığı əks etdirirdi. Belə ki, qlobal istiləşmə nəticəsində 2006-2011-ci illərdə Suriyada quraqlıq baş vermiş [17] və 50.000 ailə öz daimi yaşayış yerini tərk etməyə məcbur qalaraq iri şəhərlərə köç etmişdir [11]. Bu faktor 2011-ci ildə başlanan Suriya vətəndaş müharibəsinin əsas səbəbi olmasa da, münaqişəni tətikləyən elementlərdən olduğu aydındır. Həmçinin qlobal istiləşmə nəticəsində Afrikada yerləşən Çad gölünün quruması Şimali Nigeriyada yaşayan əhalinin içməli su və qida problemləri ilə üzləşməsinə səbəb olmuş və həmin dövrdə yüksəlməkdə olan Boko-Haram ekstremist cərəyanı (daha sonra İŞİD terror təşkilatına sədaqət andı içmişdir) daha güclənmiş və ölkədaxili olan silahlı münaqişələrə daha da şiddətlənmişdir.

İqlim dəyişmələrinin lokal səviyyədə münaqişələrə dolayı yolla səbəb olması ilk olaraq bu Hesabatda öz əksini tapmış və daha sonra bu Hesabatda olan fikirlər BMT Təhlükəsizlik Şurası tərəfindən müzakirəyə çıxarılmışdır. BMT Nizamnaməsinin 1-ci maddəsinə əsasən, bu təşkilatın əsas məqsədlərindən biri, sülh və təhlükəsizliyi təmin etməkdir [15]. Məhz bu səbəbdəndir ki, BMT TŞ Sədri 20 iyul 2011-ci il tarixində " Beynəlxalq sülh və təhlükəsizliyin qorunması

maddəsi çərçivəsində iqlim dəyişmələrinin müzakirəsi" adlı 6587 saylı Bəyanat qəbul etmişdir. Bu Bəyanatda qeyd olunur ki, silahlı münaqişələrin təhlili zamanı iqlim dəyişmələrinin təhlükəsizliyə təsirlərinə dair kontekstual məlumatları nəzərə almaq vacibdir [6]. Bəyanatın qəbulu ilə BMT TŞ iqlim dəyişmələrinin dolayı yolla münaqişələrə səbəb olduğunu (xüsusilə kiçik ada dövlətlərində) və sülhün möhkəmlənməsinə maneə olduğunu qəbul etmişdir.

2021-ci ildə BMT TŞ iqlim dəyişmələrinin beynəlxalq sülh və təhlükəsizliyə təsiri ilə bağlı qətnamə layihəsini müzakirəyə çıxarsa da, daimi üzv olan Rusiyanın veto etməsilə bu qətnamə qəbul edilməmişdir [10]. Veto edən tərəf öz qərarını əsaslandırarkən iqlim dəyişmələrini elmi və iqtisadi bir problem kimi xarakterizə etmiş və bu problemin siyasi məsələ kimi qələmə verilməsinin qəbuledilməz olduğunu bildirmişdir [10]. Halbuki, bu qətnamə layihəsində iqlim dəyişmələrinin qarşısının alınmasının əslində silahlı münaqişələrin və digər növ konfliktlərin qarşısının alınmasında "mərkəzi rol" oynaması qeyd olunurdu. Rusiyanın belə bir qətnamə layihəsini veto etməsi beynəlxalq səviyyədə insan hüquqlarının təmin olunması ciddi bir zərbədir. Nəzərə alsaq ki, iqlim dəyişmələri fundamental insan hüquqları olan yaşamaq hüququnu, təhsil hüququnu, məskunlaşma və yaşayış yeri hüququnu, suya əlçatanlılıq hüququnu, qida təhlükəsizliyi hüququnu təhdid edir, bu zaman bunun əhəmiyyəti biraz daha qabarıq şəkildə nəzərə çarpır və insan hüquqlarını təhdid edən hər bir proses və ya aktın əslində sülh və təhlükəsizliyi təhdid etdiyi bir həqiqətdir. Doğrudur, bu təsir dolayı yollarla baş verir, lakin effektiv və qalıcı həllər üçün bütün mövcud hüquqi mexanizmlərdən səmərəli şəkildə istifadə olunmalıdır.

BMT-in İqlim dəyişmələri üzrə Hökumətlərarası Panelinin 2023-cü il tarixli Qiymətləndirmə Hesabatında iqlim dəyişmələri ilə bağlı baş verən təbii fəlakətlərin (xüsusilə eyni zamanda bir neçə hadisənin baş verməsi) silahlı münaqişələrlə yanaşı siyasi böhranlara da səbəb olduğu öz əksini tapmışdır [4]. Panelin təqdim etdiyi bu mövqeyə misal olaraq, vaxtı ilə dünyanın 4-cü ən böyük gölü hesab olunan Aral gölünün qlobal istiləşmə nəticəsində quruması və duzlaşması sahilyanı Mərkəzi Asiya ölkələri - Qazaxıstan, Özbəkistan, Tacikistan və Qırğızıstan arasında siyasi gərginliyə səbəb olmuşdur [5]. Doğrudur, Aral gölü Qazaxıstan və Özbəkistan arasında yerləşir. Lakin bu gölü suyla təmin edən Amudərya və Sırdərya çayları öz mənbələrini Tacikistan və Qırğızıstan ərazilərindən götürür. İqlim dəyişmələrinin səbəb olduğu quruma prosesini şiddətləndirən faktor isə bu iki çay üzərində su elektirk stansiyalarının inşasıdır. Məhz bu səbəbdəndir ki, hər bir dövlət bu təbii fəlakətdə bir-birini günahlandırmış və regional səviyyədə böhran ortaya çıxmışdır. Digər tərəfdən, iqlim dəyişmələri ilə mübarizə çoxlu maliyyə vəsaiti tələb edir və burada əsas yük məhz inkişaf etmiş ölkələrin üzərinə düşür. Belə ki, 1992-ci il BMT-in İqlim dəyişmələri ilə bağlı Çərçivə Konvensiyasının 4.2-ci maddəsinə əsasən inkişaf etmiş ölkələr iqlim dəyişmələri ilə mübarizədə inkişaf etməkdə olan dövlətlərə yardım etməli və eyni Konvesiyasının 11-ci maddəsi bu məqsədlə

maliyyə mexanizmlərinin yaradılmasını nəzərdə tutmuşdur [16]. 2015-ci il tarixli Paris Sazişisinin 9-cu maddəsi inkişaf etmiş ölkələr tərəfindən göstərilməli olan maliyyə yardımının proqressiv şəkildə artırılmasını nəzərdə tutur [7]. Bu Konvensiyada öhdəliklərin məhz bu cür müəyyən edilməsi "ümumi, lakin fərqli məsuliyyətlər" prinsipinə əsaslanır. Bu prinsipə əsasən iqlim dəyişmələrinin qlobal xarakterini nəzərə alaraq hər bir dövlət müəyyən bir öhdəlik götürür, lakin dövlətlərin iqtisadi inkişaf səviyyəsi və tarixi məsuliyyəti nəzərə alınaraq, onlara fərqli tələblər qoyulur. Danimarkanın Kopenhagen şəhərindən keçirilən COP15 zamanı bu yardımın həcmi 100 milyard dollar nəzərdə tutulmuşdur [9], lakin 9 ildir inkişaf etmiş dövlətlər bu rəqəmin artırılmasına maneə olurlar. Bu da inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında narazılıqlara və böhranlara səbəb olur. Bakıda keçirilən COP 29-da bu rəqəmin kifayət qədər böyük olması gözlənilir [3] və bu məbləğin tamamlanmayınca iqlim dəyişmələri ilə effektiv mübarizədən və dünyada hökm sürən gərginliyin aradan qalxmasında söhbət gedə bilməz. Lakin nəyə görə əsas maliyyə öhdəlikləri inkişaf etmiş dövlətlərin üzərinə qoyulur? Belə ki, iqlim dəyişmələrinə səbəb olan əsasən inkişaf etmiş ölkələrin sənaye obyektləridir. Daha əvvəl də qeyd olunduğu kimi, Paris Sazişində iqlim dəyişmələri ilə mübarizədə əsas mexanizm kimi milli səviyyədə müəyyən olunmuş töhfələr, yəni milli iqlim strategiyaları nəzərdə tutulub. Sözsüz inkişaf etməkdə olan dövlətlərin öz milli strategiyalarını yerinə yetirmək və istixana qazlarının emissiyasını minumuma endirmək üçün müəyyən maliyyə resurslarına ehtiyacı vardır. İnkişaf etmiş dövlətlər öz öhdəliklərinin icrasını gecikdirməklə əslində iqlim dəyişmələri ilə mübarizəni ləngidir və bir növ ona töhfə vermiş olurlar.

### *II. Mövcud problemlərə dair təklif olunan həll yolları*

İqlim dəyişmələrinin silahlı münaqişələrə və siyasi krizlərə dolayı səbəb olması öz təsdiqini tapmış faktdır. Bu məsələ üçün çıxış yolları məhz beynəlxalq səviyyədə qəbul olunacaq hüquqi aktlardan keçir. İqlim dəyişmələrinin silahlı münaqişələrlə dolayı və ya birbaşa əlaqəsi barədə BMT Təhlükəsizlik Şurası tərəfindən Bəyanat yox, Qətnamə qəbul edilməlidir. Belə ki, Bəyanat BMT Təhlükəsizlik Şurasının üzvləri arasında konsensus nəticəsində qəbul edilsə də, məcburi xarakter daşımır və yalnızca Şuranın siyasi mövqeyini ifadə edir. Lakin BMT Nizamnaməsinin 25-ci maddəsinə əsasən, BMT Təhlükəsizlik Şurasının Qətnamələri məcburi xarakter daşıyır [15] və xüsusilə Nizamnamənin 42-ci maddəsinə əsasən Şuranın lazımi hallarda iqtisadi sanksiyalar tətbiq edə bilmək səlahiyyətinə malik olması [15] iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində effektiv bir vasitə ola bilər. Belə ki, iqlim maliyyəsinə dəstək olmaq öhdəliklərini yerinə yetirməkdən boyun qaçıran dövlətlərə tətbiq ediləcək iqtisadi sanksiyalar onları bu öhdəlikləri yerinə yetirməyə vadar edəcəkdir. Hüquqi cəhətdən bu effektiv həll yolu olsa da, reallıqda bunun baş verməsi hələ ki, mümkün deyil. Belə ki, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən 3-

ü (ABŞ, Fransa və Birləşmiş Krallıq) inkişaf etmiş ölkələrdirlər və iqlim maliyyəsi ilə bağlı əsas öhdəliklər məhz onların üzərinə düşür. Həmin dövlətlərə qarşı Təhlükəsizlik Şurası qətnamələri vasitəsilə hər hansı bir təzyiqin yaradılması real görünmür. Məhz bu səbəbdəndir ki, ən effektiv çıxış yolu İqlim dəyişmələri üzrə BMT-in Çərçivə Konvensiyasının Tərəflər Konfranslarında lazımi danışıqlar aparmaq və həmin Konfranslarda alınan qərarları tam dəstəkləməkdir. Burada ortaya çıxan əsas məsələ isə sanksiyaların mövcud olmamasıdır. Ilk olaraq qeyd etmək lazımdır ki, Saziş könüllülük əsasında bağlanıb. Buna görə də Paris Sazişisinin məqsədlərinin reallaşması üçün öz milli strategiyalarını tam yerinə yetirməyən və iqlim maliyyəsi ilə bağlı öhdəliklərini qulaq ardına vuran dövlətlər üçün Paris Sazişi çərçivəsində hər hansı bir sanksiya tətbiq olunması yoxdur. Bunun əvəzinə isə daha çox alternativ mexanizmlərdən istifadə olunur. Belə ki, milli strategiyalarını yerinə yetirməyən dövlətlərin iqlim maliyyəsinə çıxışı məhdudlaşdırılır, Tərəflər Konfransı zamanı onlara diplomatik təzyiq göstərilir və onlar tənqid olunurlar. Təəssüf ki, bütün mexanizmlər məhz iqlim maliyyəsinə ehtiyacı olan dövlətlərə qarşıdır, onları bu maliyyə yardımı ilə təmin etməyə borclu olanlara yox. İcra və cəza mexanizmlərinin çatışmazlığı Paris Sazişinin məqsədlərinə çatmağı ləngidir və zaman iqlim dəyişmələrinin lehinə işləyir. Burada gördüyümüz isə yalnızca iqlim diplomatiyasında deyil, həmçinin diplomatiyanın digər sahələrində müşahidə olunan "qlobal güc assimmetriyası"ın bir təzahürüdür.

Digər tərəfdən, Aral gölü və Çad gölündəki qurumanın fonunda su ehtiyatlarının qorunmasının əhəmiyyətini bir daha gördük. Məhz bu səbəbdəndir ki, bu məsələyə beynəlxalq səviyyədə həll yolları tapmaq mütləqdir. Hal-hazırda atıla biləcək ən doğru addım BMT nəznində su ehtiyatlarının idarə olunması məqsədilə ixtisaslaşmış təşkilatın yaradılmasıdır. Bundan əlavə regional səviyyədə də qurumaqda olan su hövzələrinin bərpası məqsədilə orada xüsusi rejimlər müəyyən edilə bilər. Həmçinin yuxarıda qeyd olunduğu kimi iqlim dəyişmələrinə bağlı olaraq baş verən təbii fəlakətlər insanları öz daimi yaşayış yerlərini tərk etməyə vadar edir, həmçinin bəzi kiçik ada dövlətlərinin sakinlərinin "vətəndaşsızlıq" vəziyyətinə düşməsinə səbəb ola bilər. Başqa ölkələrin ərazisinə köç etməyə məcbur qalmış və vətəndaşsızlıq vəziyyətində olan şəxslərin hüquqlarının qorunması hazırki dövrdə ən aktual problemlərdəndir. Hal-hazırda beynəlxalq hüquq instrumentlərində "qaçqın" kateqoriyasına aid edilən şəxslər sırasında iqlim dəyişmələrinə bağlı öz yaşayış yerlərini tərk etməyə məcbur qalmış şəxslər yoxdur. Bu yanaşma köhnəlmiş və mövcud reallıqlara cavab verməyən bir yanaşmadır. Nəzərə alsaq ki, qaçqınların hüquqlarını tənzimləmək üçün qəbul edilmiş Konvensiya 1951-ci ildə, yəni 73 il əvvəl qəbul olunub, onun hazırki reallıqları əks etdirməməsi olduqca normaldır. Bu problemə cavab vermək üçün yeni hüquqi təşəbbüslərin irəli sürülməsi mütləqdir. Daha əvvəl də qeyd olunduğu kimi, Rusiyanın 2021-ci ildə iqlim dəyişmələrinin beynəlxalq sülh və təhlükəsizliyi təhdid etməsi ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən irəli sürülmüş qətnamə

layihəsini veto etməsi bu məsələ önündə də bir əngəl yaratmışdır. Əgər iqlim dəyişmələrinin sülhü və təhlükəsizliyi təhdid etməsi BMT Təhlükəsizlik Şurası səviyyəsində dəstəklənərsə, bu zaman beynəlxalq hüquqda "iqlim qaçqınları " statusunun tanınması prosesi xeyli asanlaşacaq və sürətlənəcəkdir. Həmçinin BMT Təhlükəsizlik Şurası tərəfindən belə bir qətnamənin qəbulu BMT üzvlərinin milli təhlükəsizlik strategiyalarında iqlim dəyişmələri ilə mübarizənin əlavə olunmasını və ya bu proseslə mübarizənin daha da güclənməsini stimullaşdıracaqdır.

## *III. Nəticə*

Nəticə olaraq, iqlim dəyişmələri siyasi böhranlara və silahlı münaqişələrə məhz dolayı yolla səbəb olur. Məsələyə hüquqi baxımdan yanaşsaq, iqlim dəyişmələrinin konfliktlərdə rolunu təsdiqləmək üçün spesifik hallara ehtiyac var. Lakin, belə bir hal dünya praktikasında mövcud deyil. Hal-hazırda beynəlxalq hüquq iqlim dəyişmələrini daha çox dolayı faktor kimi qəbul edir. İqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün münaqişə riskinin azaldılmasına yönəlmiş adaptasiya tədbirləri və beynəlxalq əməkdaşlıq vacibdir. İqlim dəyişmələrinin siyasi böhranlara birbaşa səbəb olması nadir hallarda baş verir və əsasən resurs itkisi və ya hökumətin böhranlara düzgün reaksiya verməməsi səbəbindən belə görünür. İqlim dəyişmələri siyasi bir akt deyil, ekoloji bir hadisədir. İqtisadi, sosial və ekoloji problemləri daha da mürəkkəbləşdirən iqlim dəyişmələri siyasi böhranları dərinləşdirir və həm regional, həm də beynəlxalq səviyyəli gərginlikləri şiddətləndirir. Bu problemin həlli istiqamətində yeni hüquqi yollar aramaq hələ ki, effekt verməyəcəkdir. Lazım olan isə sadəcə BMT-nin iqlim dəyişmələri ilə mübarizədə artıq müəyyən olmuş hüquqi rejimləri çərçivəsində əməkdaşlığı gücləndirmək və öhdəlikləri yerinə yetirməkdir.

## ƏDƏBİYYAT (REFERENCES):

1. Additional Protocol 1 to the 1949 Genevan Conventions (1977).
2. Climate change and its possible security implications: report of the Secretary-General (2009).
3. A meeting was held under the chairmanship of President Ilham Aliyev regarding the holding of COP29 in our country next year – 15.12.2023. https://president.az/az/articles/view/ 62562 (last access: 26.04.24).
4. Intergovernmental Panel on Climate Change 6th Assessment Report – Summary for Policymakers.
5. İyikan, N., "Russia Factor in the Problem of Aral Lake (Aral's Sand) According to the German Sources." Akademik Baxış, V.6, N.12, 2013.
6. Overview of Security Council Presidential Statements on climate change, S/PRST/2011/15 (2011).
7. Paris Agreement within the framework of the UNFCCC (2015).

8. Protocol III to the 1980 Convention on Certain Conventional Weapons (1980).
9. Report of the Conference of the Parties on its fifteenth session, held in Copenhagen from 7 to 19 December 2009.
10. "Russia vetoes UN Security Council Resolution on Climate Crisis". The Guardian, 13 December 2021.
URL: https://www.theguardian.com/world/2021/dec/13/russia-vetoes-un-security-council-resolution-climate-crisis-international-peace (last access: 24.04.24).
11. "Syrian Civil War's role on Climate Change" (Case Study by Adelphi).
URL: https://climate-diplomacy.org/case-studies/syrian-civil-war-role-climate-change accessed (last access: 26.04.24).
12. "The Environmental and Climate Impact of the War in Ukraine." Editorials, 2024.
URL: https://editorials.voa.gov/a/7063766.html (last access: 26.04.24).
13. "The 44 Days' War – Second Karabakh War". The official website of the Prosecutor General's Office.
URL: https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi accessed (last access: 26.04.24).
14. "The Ukrainian war rattles energy sector - an Azerbaijani perspective".
URL: https://projects.voanews.com/ukraine-war-rattles-energy-sector/azerbaijani.html accessed (last access: 26.04.24).
15. The UN Charter.
16. The UN Framework Convention on the Climate Change (1992).
17. UNFCCC, "Conflict and Climate."
URL: https://unfccc.int/news/conflict-and-climate (last access: 26.04.24).

## The relationship between climate change, armed conflicts, and political crises: international legal aspects

KANAN ADİLKHANOV*

**Abstract**

*This article examines the relationship between climate change, armed conflicts, and political crises within an international legal framework. Initially, it analyzes the impacts of wars on climate change and the role of climate change in triggering armed conflicts. Particular attention is given to the recognition by the United Nations of the indirect effects of climate change*

* PhD candidate / Azerbaijan Tourism and Management University / email: kadilxanov@yahoo.com

*on conflicts, with Report A/64/350 and Statement No. 6587 explored as key examples. The article also delves into how climate change exacerbates political crises and resource disputes in various regional and international contexts. Furthermore, it highlights political disputes related to climate finance and concludes that climate change has an indirect influence on conflicts. The need for enhanced international cooperation and the effective implementation of existing legal regimes is emphasized. Lastly, the importance of further studying the interplay between climate change and conflicts is underscored as a critical area of focus.*

**Keywords:** *climate change, armed conflicts, international humanitarian law, Paris Agreement (2015), global warming and political crises, UN Security Council*.

## Связь изменения климата с вооруженными конфликтами и политическими кризисами: международно-правовые аспекты

КЕНАН АДИЛЬХАНОВ**

### Резюме

*Данная статья исследует взаимосвязь изменения климата, вооружённых конфликтов и политических кризисов в рамках международно-правовой плоскости. В первую очередь анализируется влияние войн на изменение климата и роль изменения климата в провоцировании вооружённых конфликтов. Особое внимание уделяется признанию ООН косвенного влияния изменения климата на конфликты, с примерами в виде Доклада A/64/350 и Заявления № 6587. В статье также рассматривается, как изменение климата усугубляет политические кризисы и споры из-за ресурсов в различных региональных и международных контекстах. Кроме того, поднимаются вопросы, связанные с политическими разногласиями по климатическому финансированию. В заключение делается вывод, что изменение климата оказывает косвенное влияние на конфликты. Отмечается необходимость усиления международного сотрудничества и эффективного применения существующих правовых режимов, а также подчёркивается важность дальнейшего изучения взаимосвязи между изменением климата и конфликтами.*

**Ключевые слова:** *изменение климата, вооруженные конфликты, международное гуманитарное право, Парижское соглашение (2015), глобальное потепление и политические кризисы, Совет Безопасности ООН.*

**Redaksiyaya daxil olma tarixi: 30.05.2024**
**Çapa qəbul: 24.12.2024**

** Докторант / Азербайджанский Университет Туризма и Менеджмента / email: kadilxanov@yahoo.com